DÖVLƏT
VERGİ
XİDMƏTİ

Nağd əməliyyatların dairəsi azaldılmışdır!

“Nağdsız hesablaşmalar haqqında” Qanuna edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən

❖ **Aşağıdakı hesablaşmalar yalnız nağdsız qaydada həyata keçirilməlidir:**

- ixtisaslaşdırılmış qaydada, o cümlədən komisyon və ticarət təşkilatları vasitəsilə avtomobil satışı üzrə ödənişlər;
- pərakəndə satış qaydasında təqdim edilən malların satışı üzrə bir əməliyyat çərçivəsində **4.000** manatdan artıq olan ödənişlər;
- tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində **500** manatdan artıq olan ödənişlər;

1195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

- “Lotereyalar haqqında” və “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanunları ilə tənzimlənən münasibətlər üzrə müəyyən edilmiş ümumi məbləği **3.000** manatdan artıq olan uduşlar (mükafatlar) və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşları).

Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən

❖ Yuxarıda sadalanan tələblərin pozulmasına görə pul ödənişlərini (pul qoyuluşlarını) nağd qaydada qəbul edən vergi ödəyicilərinə qanun pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin **təqvim ili ərzində belə hala**

- **birinci dəfə** yol verdikdə **10** faizi miqdarında;
- **ikinci dəfə** yol verdikdə **20** faizi miqdarında;
- **üç və daha çox dəfə** yol verdikdə **40** faizi miqdarında **maliyyə sanksiyası tətbiq edilir**.

Nə dəyişdi?

❖ **01.01.2022-ci il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən** qeyd edilən əməliyyatların nağdsız qaydada aparılması tələbi yox idi.

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə ətraflı məlumatla ”Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş” adlı bukletdən tanış ola bilərsiniz.

BAKI — 2022